Təhsildə hədəflər, yeni imkanlar

Fevralın 6-da elm və təhsil naziri Emin Əmrullayev media nümayəndələri üçün brifinq keçirib. Nazir jurnalistlərin çoxsaylı suallarını cavablandıraraq təhsil sahəsində yeniliklərdən və qarşıda duran prioritet vəzifələrdən bəhs edib.

Elm və təhsil naziri Emin Əmrullayevin təqdimatından çıxarışlar

Qarabağ Universitetinin bazasında tibb mərkəzi yaradılacaq

Tibb sahəsində peşəkar kadrların hazırlanması məqsədilə Qarabağ Universitetinin tabeliyində elmi-tədqiqat tibb mərkəzi yaradılacaq. Universitetin tibb fakültəsinin Xankəndi şəhərində yerləşən xəstəxananın bazasında qurulması nəzərdə tutulub.

Tədrisi digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili fənninin dərs saatı artırıla bilər

Gələcəkdə tədrisi digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili fənninin tədris müddəti həftəlik 3 saatdan 4 saata artırıla bilər. Hamı istədiyi dildə təhsil almaqda sərbəstdir. Biz Azərbaycan dili fənninin dərs saatlarını 2-dən 3-ə artırmışdıq. Amma lazım gələrsə, növbəti illərdə xarici dillərdə dərslərin tədris olunduğu siniflərdə Azərbaycan dili fənninin dərs saatları daha da artırılacaq. Hamı istədiyi dildə təhsil almaqda sərbəstdir. Amma təhsildə əsas məqsədlərimizdən biri də ana dilimizi unutmamaqdır.

Direktor və müavinlərin işə qəbulu qaydalarında yenilik

Ümumtəhsil müəssisələrinə direktor və direktor müavinlərinin işə qəbulunda yeni yanaşmalar tətbiq olunacaq. Ümumi təhsil müəssisələrinə direktorların işə qəbulunda onların sertifikatlaşdırma balı nəzərə alınacaq əsas şərtlərdən biri olacaq. Həmçinin ümumi təhsil müəssisələrinə direktor müavinlərinin işə qəbulunda onların sertifikatlaşdırma balı və direktorun rəyi nəzərə alınacaq. Şərtləri ödəyən namizədlər müsahibə mərhələsində iştirak edəcəklər. Ötən il müsabiqədə iştirak etmiş namizədlərin nəticələrinə yeni qaydalar çərçivəsində baxılacaq.

“Müəllim” sözünü yaza bilməyənlər uşaqlara dərs deməməlidirlər

Biz tərəfdarıyıq ki, zaman-zaman məktəb direktorlarının səlahiyyətləri artsın. Amma bu səlahiyyətlərin vaxt ikən nədən geri alındığına da diqqət yetirilməlidir. Bəlli bir müddətdən sonra “müəllim” sözünü düzgün yaza bilməyənlərə fərqli islahatlara da gediləcək. Mən istəmirəm ki, “müəllim” sözünü düzgün yaza bilməyənlər bizim uşaqlara dərs desinlər.

Universitetlərin köçürülməsi konseptual səviyyədə müzakirə edilir

Bakıdakı universitetlərin köçürülməsi konseptual səviyyədə müzakirə edilir, yəni hələ təhlillər aparılır. Bu məsələ çox zəruridir. Bu istiqamətdə işləyirik. Amma Bakının mərkəzində yerləşən universitetlərin 15-20 min tələbəsi, üstəlik, onların müəllimləri də var. Bu, elə də asan məsələ deyil. Amma eyni zamanda, biz bunu istisna etmirik. Düşünürük ki, təhsil nə qədər sakit mühitdə olsa, bir o qədər yaxşı olur. Məsələn, Qarabağ Universitetindən müsbət mesajlar alırıq. Hazırda bu məsələ ilkin layihə formasında nəzərdə tutulur.

Məktəbin içində repetitorluğun olması məsələsi gündəmdədir və bunu düzgün hesab etmirik

Repetitorluğun bir neçə səbəbi var: Biri odur ki, ali məktəbə qəbul üçün hazırlaşırlar. Məktəbdə 17 fənn tədris olunur, repetitor isə bir neçə fənn üzrə hazırlıq keçir. Xüsusilə rus bölməsində övladı təhsil alan valideynlər azyaşlıları dərsdən sonra məşğul olması üçün repetitor yanına göndərirlər. Valideynlər evdə rus dilində danışmırlar. Bu halda müəllim yanına aparılır ki, uşağına dəstək olsun. Repetitorlar məktəb müəllimləridir. Necə ola bilər ki, müəllim olanda pisdir, amma repetitor olanda yaxşı olur. Bunun necəliyini qəbul edə bilmirəm. Bu, vicdan məsələsidir. Repetitorluq və məktəbdən sonrakı fəaliyyət fərqli məsələlərdir. Uşaq olimpiadaya hazırlığa gedirsə, bu, repetitorluq deyil, amma sırf imtahana hazırlıq üçün gedirsə, bu, artıq repetitorluqdur.

Məktəblərdə dərslərin başlama vaxtını direktor və valideyn tənzimləyə bilər

Məktəblərdə dərslərin başlama vaxtının dəyişməsini direktor və valideyn tənzimləyə bilər. Nazirlik belə hallara etiraz etmir. Misal olaraq, kənd məktəblərində övladı təhsil alan valideynlər deyə bilər ki, dərs orada saat 8-də yox, məhz saat 8:30, yaxud 9:00-da başlasın, nazirlik olaraq buna etiraz etmərik.

Məktəblərdə nəzarət-yoxlama tədbirləri davam etdiriləcək

Son günlərdə regionda təhsil sektorunun müdirinin nəzarət-yoxlama tədbirləri nəticəsində vəzifəsindən azad edilməsi, həmçinin məktəb direktorunun rüşvətə görə həbs olunması məsələsinə münasibət bildirilib. Hər iki hal nazirliyin araşdırması nəticəsində üzə çıxarılıb. Lakin nazirlik hüquq-mühafizə orqanı deyil. Öz səlahiyyətimiz çərçivəsində cəza verə biliriksə, veririk, səlahiyyətimizin xaricində olanda isə müvafiq qurumlara yönləndiririk. Bu proses davamlı olaraq aparılacaq. Məktəblərdə bu istiqamətdə yoxlamalarımızı davam etdirəcəyik.

Növbəti tədris ilindən “Şagird davranış qaydaları” bütün məktəblərdə tətbiq ediləcək

Növbəti tədris ilindən bütün dövlət ümumi təhsil müəssisələrində “Şagird davranış qaydaları”nın tətbiqi nəzərdə tutulur. Bu qaydalar 2 tədris ili ərzində 329 ümumi təhsil müəssisəsində pilot olaraq tətbiq olunub. Pilot müəssisələr üzrə monitorinq və təhlillər aparılıb, təkliflər formalaşdırılıb. Qaydalarda şagirdlərin fiziki təhlükəsizliyi, psixoloji sağlamlığı, onlara qarşı ayrı-seçkilik, həmçinin verbal, sosial-psixoloji və kiberqısnamanın (bullinq) qarşısının alınması kimi bir çox zəruri məsələlər ehtiva olunub.

55 mindən çox müəllim sertifikatlaşdırmaya görə maaşına əlavə alır

Azərbaycanda 2022-2024-cü illərdə həyata keçirilən sertifikatlaşdırmadan sonra ümumilikdə 55510 müəllimin əməkhaqqına əlavələr edilib. Sertifikatlaşdırmada yüksək nəticə göstərən 17426 müəllim 35% əlavə alır. Sertifikatlaşdırmada qənaətbəxş nəticə göstərən 38084 müəllim əməkhaqqına 10% əlavə alır.

Metodik dəstəklə bağlı institusional sistem qurulur

Müasir metodiki xidmət modelinin mahiyyəti açıqlanıb. Bu modelə uyğun olaraq, metodistlər 3 səviyyə üzrə fəaliyyət göstərəcək. Məktəb səviyyəli metodistlər metodist, region səviyyəli metodistlər aparıcı metodist, ölkə səviyyəli metodistlər baş metodist sayılacaq. Əsas hədəflər məktəb daxilində təhsilverənlərin davamlı peşəkar inkişaf mexanizminin qurulması, təhsilverənlər üçün peşəkar inkişaf xəttinin yaradılması və ölkədə metodik dəstəklə bağlı institusional sistemin qurulmasıdır.

Bu il riyaziyyat və xarici dil müəllimlərinin sertifikatlaşdırılması yekunlaşacaq

Orta ümumtəhsil müəssisələrində çalışan riyaziyyat və xarici dil müəllimlərinin sertifikatlaşdırılmasının birinci mərhələsi başa çatıb. 2025-ci ildə olması nəzərdə tutulan ikinci mərhələdə 849 nəfər riyaziyyat, 2893 nəfər xarici dil müəllimi iştirak edəcək. 2022-2024-cü illər üzrə təşkil olunmuş təhsilverənlərin sertifikatlaşdırılması imtahanlarında 65 min müəllim iştirak edib. Beləliklə, ibtidai sinif və Azərbaycan dili və ədəbiyyat müəllimlərinin sertifikatlaşdırılmasının hər iki mərhələsi başa çatıb. Ümumilikdə 31 852 nəfər ibtidai sinif, 9892 nəfər Azərbaycan dili və ədəbiyyat müəllimi sertifikatlaşdırmada iştirak edib. İbtidai sinif və Azərbaycan dili və ədəbiyyat müəllimləri üzrə sertifikatlaşdırmadan sonrakı əməkhaqlarında 10% artım olub.

Rasionallaşdırma zamanı bütün həll yolları təklif edilir

Məktəb rasionallaşan zaman məktəblər arasındakı məsafə uzundursa, uşaq daşınmalıdır. Rasionallaşdırma zamanı bütün hallarda həll yolları təklif edilir. Bu zaman regional idarə ilə yerli əhalinin də rəyi üst-üstə düşməlidir.

Sinifdə bir şagird oxuyursa, ona təxminən 60 min manat vəsait xərclənir

Məktəblərin rasionallaşdırılması büdcədən qənaətlə istifadə edilməsinə gətirib çıxarır. Bir sinfə çəkilən xərc ortalama 20-25 min manatdır. Lakin bir sinifdə təhsil almalı olan 20-25 uşaq fərqli siniflərdə oxuyanda xərc daha çox olur. Məsələn, hesablamışdıq ki, əgər sinifdə bir uşaq oxuyursa, xərc 60 min manat təşkil edir. Təxminən 270 məktəb rasionallaşdırılacaq. Mətbuatda yayımlanan 1500-2000 rəqəmi həqiqəti əks etdirmir. Düzdür, şagird sayı 100-dən az olan 1500-2000 məktəbimiz var. Amma həmin məktəblərdən bəziləri rasionallaşdırılacaq. Bütün bu məktəblərin rasionallaşdırılacağı ilə bağlı məlumat nə mən, nə də nazirlik tərəfindən səsləndirilməyib.

1000 məktəbdə metodiki fəaliyyət təşkil olunacaq

Ötən il ərzində metodik xidmətin yenidənqurulması istiqamətində görülmüş işlər açıqlanıb. Sertifikasiya balı yüksək olan müəllimlər arasından metodistlərin seçilməsi və təlimləndirilməsi həyata keçirilib. Metodiki xidmətin təşkil olunduğu məktəblərin sayı 96-ya çatdırılıb. 96 məktəbdə 1080 metodiki görüş təşkil edilib. Bundan başqa, 5840 dərsdinləmə həyata keçirilib. 59 nəfər qiymətləndirmə metodisti üçün sinqapurlu təlimçilər tərəfindən təlim keçirilib. 2026-cı ilin sonunadək ölkədə 1000 məktəbdə metodiki fəaliyyətin təşkili və hər bir regionda metodik dəstək qruplarının formalaşdırılması nəzərdə tutulur.

Builki sertifikatlaşdırmada hansı fənn müəllimləri iştirak edəcək?

Azərbaycanda bu il və gələn il ərzində hansı fənn müəllimlərinin sertifikatlaşdırmaya cəlb ediləcəyi açıqlanıb. Bu il biologiya, kimya, fizika, coğrafiya, informatika, gələn il isə tarix, texnologiya, musiqi, təsviri incəsənət, fiziki tərbiyə müəllimləri sertifikatlaşdırılmaya cəlb ediləcək. 2026-cı ilin sonunadək bütün fənlər üzrə əlavə 40 min nəfər müəllim sertifikatlaşdırılma prosesinə cəlb olunacaq.

Bu il 130-a qədər məktəb rasionallaşdırılacaq

2025-ci ildə 130-a qədər dövlət ümumi təhsil müəssisəsi ilə bağlı rasionallaşdırma tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulub. 2024-cü ildə məktəblilərin sayı ilə bağlı 147 müəssisə rasionallaşdırılıb. Məktəblərdə qalan şagirdlər və çalışan işçilər digər məktəblərə yerdəyişmə edilib. Rasionallaşdırma üçün əsas meyarlar əhalinin artım dinamikası, infrastruktur, coğrafi əlverişlilik, ən yaxın məktəbə qədər məsafə, siniflərin komplektləşdirilməsi, şagird və müəllim sayıdır.

Süni intellekt tədrisə yanaşmaları kökündən dəyişəcək

Süni intellekt tədrisə, tədqiqata yanaşmaları kökündən dəyişəcək. Hesab edirəm ki, çox qısa zamanda bu, mümkün olacaq. Biz tərəfdən süni intellektlə bağlı yanaşma konsept səviyyəsindədir. Süni intellekti təhsil komponentinə çevirə bilsək, bir sıra problemləri aradan qaldıra bilərik. Amma tətbiq məsələsinə gəlincə, süni intellekt bir alətdir və bacarıq məsələsidir. Müəllimlərimiz bunu bacarırlarsa, hansısa mövzu barədə oradan metodik tövsiyələr ala bilərlər. Süni intellektdən istifadə ilə bağlı nazirliyin hansısa tənzimləmə sənədinə ehtiyac yoxdur.